# Elm və təhsil sahəsinin tanınmış qadınları



Elm və təhsil sahəsində öz töhfəsini verən, hər kəsin tanıdığı və sevdiyi qadınlar az deyil. Hətta, demək olar ki, bu sahədə daha çoxdur. Onlar, sadəcə ailəsində övlad deyil, cəmiyyətə insan, ölkəyə vətəndaş yetişdirirlər. Hər şagirdi, yetişdirdiyi hər insan onların imzasına çevrilir. Yetişdirikləri insanların da gözündə ucaldıqca ucalır, fənn müəllimindən həyat müəlliminə yüksəlirlər.



## "Mənim üçün ən böyük hədiyyə şagirdlərimin mənə sarılmalarıdır"



Müəllimlərinin müəllim etdiyi, özü də çoxlarına müəllim olmağı bacaranlardır qonağımız. Məsələn, Bakı şəhəri Suraxanı rayonu Şəhid Etibar Cəfərovun adını daşıyan 118 nömrəli məktəbin tarix müəllimi Amənə Kərbalayeva təhsilli bir ailədə yetişib. Anasının təhsilli evdar qadın olması onun gələcək taleyinə təsir edib: "Ailəmiz çoxuşaqlı olduğundan anam çalışmırdı. Evdar xanım olsa da, bizim təhsilə, kitaba bağlanmağımız üçün əlindən gələni etdi. Yay tətilini onun tutduğu plan əsasında keçirirdik. Anamın siyahısı ilə kitabxanadan kitab götürüb oxuyurduq".

Özü evdar olsa da, balalarının təhsilli olmasına nail olan anası sayəsində Amənə orta təhsil səviyyəsini uğurla tamamlayıb: "Bakının Nəsimi rayonundakı 44 nömrəli tam orta məktəbin məzunuyam. Həmin təhsil ocağı, müəllimləri ilə bağlı xoş xatirələrim var. Tərəddüd etmədən müəllimliyi seçib bu şərəfli sənətə ömürlük bağlanmağımda da məhz müəllimlərim həlledici oldu".

Amənə müəllim Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur. 1996-2001-ci illərdə Tarix fakültəsində bakalavr, 2006-2009-ci illərdə isə magistr təhsil səviyyəsini bitirib. 2011-ci ildə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı olub. 2017-ci ildə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Cəlalilər hərəkatı və Azərbaycan (XVI əsrin sonu - XVII əsrin əvvəlləri)"mövzusunda dissertasiya işini müdafiə edib. Tarix üzrə fəlsəfə doktorudur. Elmi fəaliyyətini pedaqoji sahədəki fəaliyyəti ilə paralel inkişaf etdirir.

Pedaqoji fəaliyyətə hələ III kurs tələbəsi ikən - 1999-cu ildə Bakının Nizami rayonundakı 201 nömrəli tam orta məktəbdə tarix müəllimi kimi başlayıb. Hazırda yenə Nizami rayonunda, amma başqa - 118 nömrəli tam orta məktəbdə müəllimdir. Bu illər ərzində, sadəcə iş yerini yox, bacarıqları da dəyişib: "Qiyabi ali təhsil aldığım üçün hələ III kursdan Bakının Nizami rayonundakı 201 nömrəli tam orta məktəbdə gənc tarix müəllimi kimi işə başladım. Məktəbdə qarşılaşdığım hər çətinliyin öhdəsindən gələrkən ən yaxın bələdçim, dəstəkçim o vaxtkı direktorum Süsən Salmanov oldu. Həm onun köməyi, həm də üzərimdə ciddi məşğul olmağım müsbət nəticəsini verdi".

2013-cü ildən müəllim olaraq ilk böyük uğurunu qazanıb. Əvvəlcə Elm və Təhsil Nazirliyinin təşkil etdiyi yarışda "Tarix müəlliminin ən yaxşı açıq dərsi" nominasiyası üzrə III yeri qazanaraq "Fəxri fərman"la təltif edilib. Sonra ölkə Prezidentinin Sərəncamına əsasən, 2012-2013-cü tədris ilində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərindən olub. İlin uğurlu müəllimlərindən biri kimi 2013-cü ilin dekabrında keçirilən Azərbaycan müəllimlərinin XIV qurultayında iştirak edib. 2016-cı ildə isə ölkə Prezidentinin Sərəncamına əsasən, "Tərəqqi" medalı ilə təltif edilib. 1 dərslik, 2 müəllim üçün metodik vəsait, 1 monoqrafiya və 30 elmi məqalənin müəllifidir.

Bakı şəhəri üzrə Təhsil İdarəsi və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi tərəfindən təşkil olunan "XV Bakı Karl Popper Debat" formatı üzrə turnirin məşqçisi və təlimçisi olub.

Azərbaycan tarixi, ümumi tarix və həyat bilgisi fənn kurikulumlarının hazırlanması, eləcə də qiymətləndirmə standartlarının hazırlanması üzrə işçi qruplarının üzvlərindən biridir.
Peşəkarlığını artırmaq üçün 30-dan çox müxtəlif pedaqoji təlim kurslarında iştirak edib, sertifikatlar alıb, dünya təhsil sisteminin öyrənilməsi təcrübəsinə yiyələnib. Gürcüstanın Kobuleti şəhərində Təhsil Şurasının təşkil etdiyi Beynəlxalq elmi-təcrübi konfransda iştirak edib, sertifikata layiq görülüb. "Akademik elm həftəliyi -2015" adlı beynəlxalq multidissiplinar forumun iştirakçısı olub və beynəlxalq sertifikat əldə edib.

2012-2019-cu illlərdə kurikulum təlimçisi və 2014-2015-ci illərdə Təhsil Nazirliyində dərsliklər üzrə ekspert kimi fəaliyyət göstərib.Təhsildə inkişaf və innovasiyalar üzrə "Tariximizi sevək ki, unutmayaq!" adlı layihə ilə V, "İstedadlarla tarix Olimpiadasına hazırlıq" adlı layihə ilə isə VI qrant müsabiqələrinin qalibidir.

2020-2021-ci tədris ilində yüksək təlim naliyyətlərinə görə Fəxri fərmanla qiymətləndirilən Amənə müəllim 2021-ci ildə "Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif edilib. Həmin ilin dekabrında "Yaradıcı müəllim" mövzusunda təqdimat müsabiqəsində fəal iştirakına görə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən "Təşəkkürnamə" alıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən təşkil edilən "Yaradıcı müəllim: inkişaf edək, etdirək" təqdimat müsabiqəsində birinci yer qazanaraq qalib olub.

Amənə müəllim ABŞ-ın Azərbaycandakı səfirliyinin Regional İngilis Dili Ofisinin Onlayn Peşəkar İngilis Şəbəkəsi (OPEN) Proqramının ABŞ universitetləri tərəfindən hazırlanmış 8 həftəlik peşəkar inkişaf kursunu uğurla bitirib. Belə layihələrə qoşulmaqda isə bir məqsədi var: "Beynəlxalq layihələrə qoşularaq Azərbaycançılıq və başqa milli-mənəvi dəyərlərimizi dünya müəllimləri ilə bölüşmək həyatdakı əsas missiyamdır".

Müəllim-şagird münasibətlərindən danışan Amənə Kərbalayeva sözlərinə əlavə edib: "Mənim üçün ən böyük hədiyyə şagirdlərimin mənə sarılmalarıdır. Ən təsirləndiyim hədiyyələrimdən biri isə şagirdlərimin çəkdiyi rəsmim olub".

Müəllim üçün şagirdlərinin uğurlarından böyük hədiyyəmi var? Amənə müəllim bunu bir daha təsdiq edir. Onun fikrincə, şagirdləri olimpiada və yarışmalarda qalib gələrək ona ən böyük hədiyyələri verirlər: "Təhsildə inkişaf və innovasiyalar üzrə VI Qrant Müsabiqəsi çərçivəsində olimpiada mərkəzini məktəbdə təşkil etmişəm. Artıq ilk nəticələrim də var. Zəfər olimpiadasında şagirdlərim Fatimə Məmmədli birinci yer, Sabir Tağıyev ikinci yeri qazanıb. Həm bu, həm də başqa sahələrdə uğurlarımın davamına çalışıram".

## "Şagirdimin sevgisi mənim üçün önəmlidir"



Vətanə Zeynalova da Bakının adlı-sanlı müəllimlərindəndir. Xüsusən, "Teledərs" layihəsində onu bütün Azərbaycan tanıdı. Özü Sahil qəsəbəsindəki 228 nömrəli tam orta məktəbdə oxuyub. ADPU-nun 2001-ci il məzunlarındandır. Təhsil aldığı məktəblər - orta məktəbdən ali məktəbə hər biri onu müəllimliyə hazırlayıb.

Belə ki, müəllimliyi seçməsində müəllimlərinin təsirini xüsusi qeyd edir: "Orta məktəb illərində özümü müəllim obrazında görürdüm. Müəllimlərimin də bunda çox böyük təsiri vardı. Onlardan mütəmadi olaraq "səndən yaxşı müəllim olar" fikrini eşitmək məni bu peşəyə istiqamətləndirirdi. Müəllimliyə xüsusi sevgi lazımdır, səbir, şagirdlərlə işləmə bacarığı, həvəs olmalıdır. Universitetdə də müəllimlərimin yönləndirməsi davam etdi. Yaxşı müəllim olacağım fikrini onlardan eşidirdim. Müəllimlərimin fikri hər zaman mənim üçün önəmli olub və məhz onların yönləndirməsi ilə bu peşəni seçmək qərarı düşüncələrimdə möhkəmlənib. Seçimimdə səhvə yol verdiyimi düşünmürəm. Şagirdlərlə işləməyi çox sevirəm".

Pedaqoji fəaliyyətdə ilk təcrübə meydanı Nərimanov rayonunda 177 nömrəli məktəb olub: "İstənilən sahədə insan uğur qazanmaq istəyirsə, peşəsinin vurğunu olmalıdır. Peşə sevgidir, məsuliyyətdir. Yaxşı görülən işə verilən qiymət isə insanı daha böyük uğurlara həvəsləndirir. Qiymətləndirmə uğur üçün motivasiya olur. Mən bu qiyməti gördüm, ən düzgün qiyməti şagirdlərimdən aldım. Onların qiyməti mənim üçün çox önəmlidir".

Şagirdləri ilə işində milli-mənəvi dəyərlər ön planda olur: "Düşünürəm ki, həm mənim özümdən, həm də tədris etdiyim fəndən irəli gələn məsələdir. Sadəcə elmi bilik verməklə kifayətlənmirəm, həm də şagirdlərimə mənəvi dəstək olmağa çalışıram. Onların milli-mənəvi dəyərlərə hörmətlə yanaşmalarına, vətənpərvər olaraq yetişmələrinə, şəxsiyyət kimi formalaşmalarına yardımçı oluram. Özüm də vətənpərvərəm, milli-mənəvi dəyərlərə hörmətlə yanaşıram. Bu ruhda böyüdüklərindən şagirdlərim başqalarından seçilir. Artıq bir neçə - V sinifdən tədrisə başladığım 2 sinfim məzun olub. Bu il sinif rəhbəri olduğum sayca III sinfimi müstəqil həyata yola salacağam. Düşünürəm ki, onların da həyatında, təhsilində yaxından iştirak eləmişəm".

Vətanə müəllim tələbkar müəllimdir. Amma şagirdləri ilə isti münasibət qurmağı da yaxşı bacarır: "Şagirdlərimə hörmətlə yanaşıram. Valideynləri ilə bölüşə bilmədiklərini mənimlə məsləhətləşmələrinə şərait yaradıram. Həm hədiyyə almağı, həm də verməyi xoşlayıram. Amma hədiyyənin təqdimatı, hədiyyə seçimi önəmlidir. Kiçik bir açıqcanı sevgi ilə təqdim etmək insanı xoşbəxt edə bilir. Xüsusən aşağı sinifdə oxuyan şagirdlərim çox gözəl açıqcalar hazırlayırlar. Onların təqdim etdiyi hədiyyələr məni çox xoşbəxt edir. Bəzən sinfə daxil oluram, lövhədə sevgilərini elə gözəl formada yazırlar... Bu tamamilə fərqli bir hissdir. Şagirdləri tərəfindən sevilmək başqa heç bir hisslə müqayisə oluna bilməz".

Hədiyyənin nə olduğuna gəlincə, Vətanə müəllim deyir ki, hədiyyə seçərkən insanın xarakteri nəzərə alınmalıdır: "Şagirdlərim məni yaxşı tanıyırlar. Məni nəyin sevindirəcəyini, nədən xoşhal olacağımı bilirlər. Məsələn, çiçəkləri çox sevirəm və şagirdlərimdə bunu bilir. Hər hansı bayram olmadan da mövsümə uyğun çiçək alan şagirdlərim çoxdur. Onlar çiçəyi mənə çox böyük sevgi ilə verir və mən də onu çox böyük sevgi ilə qəbul edirəm. Çünki şagirdin hədiyyəsi yox, sevgisi mənim üçün daha önəmlidir".

2012-ci ildə "İlin ən yaxşı müəllimi"müsabiqəsinin qalibi, 2016-cı ildə BŞTİ tərəfindən "Fəxri fərman"la təltif olunan V.Zeynalova medallı müəllimlərdəndir: "2017-ci ildə "Tərəqqi" medalına layiq görüldüm. Bu, mənim müəllimliyimə verilən yaxşı qiymət idi".

Müxtəlif illərdə Respublika Fənn Olimpiadalarında Komissiya üzvü olub. Dərslik eksperti, "Heydər Əliyev məktəblilərin gözü ilə", "Zəfər yolu", "Əziz Şuşa, sən azadsan" inşa müsabiqələrində ekspert kimi çıxış edən V.Zeynalova "Teledərs" layihəsində fəal iştirak edib və bütün ölkədə tanınıb. IX, X, XI siniflərdə Azərbaycan dilini bütün Azərbaycan məktəblilərinə video formatda tədris edərək onların da qəlbinə yol tapıb.

**Ruhiyyə DAŞSALAHLI**